# Mündəricat


01 Rəqəmsal və yaşıl keçidlərin təhsillə inteqrasiyası

02 Valideynlərin, qəyyumların erkən uşaqlıq təhsili və qayğı mərkəzlərinə cəlb edilməsi

03 Təhsil, bacarıqlar və məşğulluq: 2024-cü ilin trendləri və inkişafları

04 Təhsilə Maliyyə Baxışı 2024

# Rəqəmsal və yaşıl keçidlərin təhsillə inteqrasiyası

01

UNESCO-nun Təhsil üzrə Baş Direktor Müavini Stefania Gianninin “Rəqəmsal və yaşıl keçidlərin təhsillə inteqrasiyası” adlı məqaləsi dərc olunmuşdur. Müəllif məqalədə rəqəmsal və yaşıl keçidlərin uyğun şəkildə inteqrasiyasında təhsilin oynadığı mühüm rolu araşdırır. Bildirilir ki, bu gün dünya iki əsas transformasiya ilə üzləşir: süni intellekt keçidi, yaşıl keçid və rəqəmsallaşma. Hər iki keçid daha yaxşı gələcək qurmağa, eyni zamanda milli və beynəlxalq inkişaf məqsədlərinə çatmağa ümid verir. Lakin çox zaman bu proseslər bir-birindən ayrı və ya ziddiyyətli hesab edilir.

Giannini bu keçidlərin inteqrasiyasında təhsilin mühüm bir açar olduğunu vurğulayır. O, rəqəmsal texnologiyanın potensialını yaşıl keçidin sürətləndirilməsi üçün istifadə edən yeni bir qlobal vətəndaşlıq modelinin formalaşdırılmasını təklif edir. Həmçinin müəllif cari məqaləsində bu transformasiyaların davamlı və firavan gələcək üçün birləşdirilməsinə dair dörd əsas ideya təqdim edir.

**Keçidlərin qarşıdurması: gerçəklik və çağırışlar**
Məqalədə bildirilir ki, yaşıl keçidin vacibliyi mütləqdir. Artan ictimai məlumatlılıq və təşəbbüslərə baxmayaraq, təbiətə və iqlimə təzyiqlər hələ də davam edir. Digər tərəfdən, rəqəmsal və süni intellekt keçidi cəmiyyətin bütün sahələrini sürətlə dəyişir.
Rəqəmsal keçid bəzən yaşıl keçidə maneə kimi qəbul edilir, bu da onların uyğunlaşdırılmasının mümkün olmadığı düşüncəsini yaradır. Lakin Giannini hesab edir ki, bu keçidlər bir-birini tamamlayaraq həm insanların, həm də planetin rifahını artırmaq potensialına malikdir.

**Təhsil və texnologiyanın transformativ rolu**
Müəllif məqalədə təhsilin rəqəmsal və yaşıl keçidlərin inteqrasiyasında rolunu izah edən dörd əsas istiqaməti təqdim edir:
**1. İqlim dəyişikliyinin dərk edilməsində texnologiyanın rolu**
Texnologiya, xüsusilə multimedia və interaktiv rəqəmsal alətlər iqlim dəyişikliyini daha yaxşı anlamağa kömək edir. Bu alətlər davamlılıq üzrə məlumatlılığı artırır və ətraf mühitə məsuliyyətli yanaşma formalaşdırmaq üçün zəruri bacarıqların inkişafına şərait yaradır.
**2. Tətbiqi öyrənmə vasitəsilə iqlim fəaliyyətinin təşviqi**
Məktəb və icmalarda texnologiyaların tətbiqi öyrənmə yanaşmalarını təşviq edərək, şagirdlərin ətraf mühitlə bağlı daha dərin anlayışa yiyələnməsinə dəstək verir. Həmçinin, təhsilalanlarda məsuliyyətli davranışların formalaşmasına kömək edir.
**3. Yaşıl enerji və texnologiyanın yenilikləri**
Süni intellekt və digər texnoloji vasitələr yaşıl enerji həllərinin inkişafında həlledici rol oynayır. Bu günəş və külək enerjisinin optimallaşdırılması, davamlı kənd təsərrüfatının, tullantıların idarə edilməsində tətbiq olunan yeni strategiyaların vasitəsilə reallaşır.
**4. Yaşıl-rəqəmsal davamlı vətəndaşların hazırlanması**
Burada əsas məqsəd gəncləri rəqəmsal savadlılıq, davamlılıq, etik yanaşma və qlobal məsuliyyət kimi bacarıqlarla təmin etməkdir. Təhsil texnologiyadan məqsədyönlü və tənqidi istifadəni öyrətməklə bu məqsədə çatmağa imkan yarada bilər.

**Nəticə**
Qeyd olunan istiqamətlərin fonunda 2030-cu ilə qədər davamlı inkişaf məqsədlərinə nail olmaq üçün təhsilin rəqəmsal və yaşıl keçidlərin əlaqələndirilməsi baxımından strateji bir vasitə olduğu məqalədə vurğulanır.  Eyni zamanda Stefania Giannini bildirir ki, təhsil bu keçidlərin uyğun inteqrasiyasını uğurlu həyata keçirmək imkanına malikdir.

Mənbə: Giannini, S. (2024). Bridging digital and green transitions through education. UNESCO: https://www.unesco.org/en/articles/bridging-digital-and-green-transitions-through-education-new-paper-stefania-giannini?hub=343

# Valideynlərin, qəyyumların erkənuşaqlıq təhsili və qayğı mərkəzlərinə cəlb edilməsi

02

Cari ildə OECD tərəfindən "TALIS Starting Strong 2018" sorğusu əsasında "Valideynlərin və qəyyumların erkən uşaqlıq təhsili və qayğı mərkəzlərinə cəlb edilməsi" adlı hesabat hazırlanmışdır. Hesabat 9 ölkədən (Çili, Danimarka, Almaniya, İslandiya, İsrail, Yaponiya, Koreya, Norveç və Türkiyə) məlumatları təhlil edərək valideynlərin:

- Erkən uşaqlıq təhsili və qayğı mərkəzləri (ECEC) ilə ünsiyyətini,
- Uşaqların evdə tədrisinə dəstəyi,
- Mərkəzlərin idarə olunmasında iştirak səviyyələrini araşdırır.

Hesabat üç əsas təcrübəyə diqqət çəkir:

1. Erkən uşaqlıq təhsili və qayğı mərkəzləri (ECEC) ilə valideynlərin ünsiyyəti,
2. Evdə uşaq inkişafı üçün dəstək,
3. Erkən uşaqlıq təhsili və qayğı mərkəzlərinin (ECEC) idarə olunması və qərar qəbulunda valideyn iştirakı.

Bu təcrübələr sosial-iqtisadi fərqlər nəzərə alınaraq təhlil edilmiş, əsas tendensiyalar və çağırışlar müəyyənləşdirilmişdir.
Valideynlərin erkən uşaqlıq təhsili mərkəzlərində iştirakı uşaqların sosial-emosional və koqnitiv inkişafında mühüm əhəmiyyət daşıyır. Eyni zamanda onların ümumi rifahına təsir edir. ECEC təminatçıları ilə əlaqə uşaqların sosial-koqnitiv nəticələrini artırır. Bu xüsusilə resurs çatışmazlıqlarını azaltmağa kömək edərək, həssas təbəqələrdən olan uşaqlar üçün daha çox əhəmiyyət kəsb edir. Valideyn iştirakının gücləndirilməsi sosial bərabərsizliyi azaltmaq və uşaqlar üçün bərabər imkanlar təmin etməkdə mühüm rol oynadığı hesabatda öz əksini tapır.

**Valideynlərin erkən uşaqlıq təhsili və qayğı mərkəzlərində iştirakının əhəmiyyəti**
Valideynlərin erkən uşaqlıq təhsili mərkəzlərində iştirakı uşaqların sosial-emosional və koqnitiv inkişafına, eləcə də ümumi rifahına mühüm təsir göstərir. Bu iştirak sosial bərabərsizliyi azaldaraq, resurs çatışmazlığı olan həssas qrupların dəstəklənməsində xüsusi əhəmiyyət daşıyır.

Hesabatda qeyd edilir ki, rəhbərlərin üçdə ikisindən çoxu valideynlərlə tez-tez ünsiyyət qurduqlarını bildirib (gündəlik/həftəlik qeyri-formal ünsiyyət və ayda bir dəfə formal görüşlər). Çili və Yaponiya istisna olmaqla digər ölkələrdə rəhbərlərin 50%-dən azı həm formal, həm də qeyri-formal ünsiyyətə üstünlük verdiyini qeyd edib.

Həmçinin hesabatda o da vurğulanır ki, İslandiyada zəif sosial-iqtisadi qrupların iştirak etdiyi mərkəzlərdə qeyri-formal ünsiyyət səviyyəsi daha yüksək olub.
Hesabatda əksər ölkələrdə son 1il ərzində erkən uşaqlıq təhsili mərkəz rəhbərlərinin bir qismi tərəfindən valideynlər üçün seminarlar və ya kurslar təşkil edildiyi qeyd olunur. Bununla yanaşı, Çili, Koreya və Norveçdə bu göstəricilər daha yüksək səviyyədə müşahidə olunmuşdur. Xüsusilə Yaponiya, Koreya və Norveçdə İmtiyazlı uşaqlarla işləyən mərkəzlərdə valideynlər üçün seminarların daha geniş şəkildə təşkil edildiyi bildirilir.

Eyni zamanda, məktəbəqədər təhsil səviyyəsində İslandiya, Danimarka və Norveçdə rəhbərlərin 50%-dən azı valideynlərin erkən uşaqlıq təhsili mərkəzlərinin qərarlarında iştirakını dəstəklədiyini qeyd etmişdir. Bunun əksinə olaraq Çili və Norveçdə valideynlərin qərar qəbulunda iştirakı üçün görüşlərin təşkil olunması 90%-dən çox göstərici ilə daha geniş yayılmışdır.

Çili, Danimarka, İsrail, Koreya və Türkiyədə məktəbəqədər təhsil işçilərinin 70%-dən çoxu valideynləri uşaqları ilə oyun və təhsil fəaliyyətlərinə aktiv şəkildə cəlb etməyə təşviq etdiklərini bildiriblər. Həmçinin hesabatda xüsusi olaraq qeyd edilir ki, 3 yaşdan kiçik uşaqlarla işləyən mərkəzlərdə bu təcrübə daha az yayılmışdır.





Bundan əlavə, əksər ölkələrdə məktəbəqədər təhsil rəhbərlərinin yarısından çoxu çoxşaxəli təcrübələrə (tez-tez ünsiyyət, evdə dəstək və əməliyyat fəaliyyətləri) üstünlük verdiklərini qeyd etmişdir. Belə ki, respondent ölkələr arasında İslandiya çoxsahəli iştirak göstəricisi 50%-dən aşağı olan yeganə ölkə olaraq fərqlənir.

Valideynlərlə effektiv ünsiyyət mövzusunda təlim keçmiş işçilər, adətən, çoxsahəli valideyn cəlbetmə təcrübələrinə üstünlük verdiklərini bildiriblər. Bu təlimsiz həmkarları ilə müqayisədə təcrübi təlim keçmiş işçilər arasında daha yüksək səviyyədə müşahidə edilmişdir.

Statistik məlumatlar göstərir ki, bütün respondent ölkələrdə işçilərin və rəhbərlərin 70%-dən çoxu valideyn dəstəyindən ümumi məmnunluq ifadə etmişdir. Bununla yanaşı Almaniya və Çili kimi ölkələrdə sağlamlıq imkanı məhdud olan uşaqların çox olduğu mərkəzlərdə məmnunluğun daha aşağı səviyyədə olduğu hesabatda vurğulanır.

Hesabatdan məlum olur ki, müxtəlif yönlü valideyn cəlbetmə təcrübəsinə üstünlük verən mərkəzlərdə işçilər valideynlərin narahatlıqlarını həll edərkən daha çox stress yaşayırlar. Bu halların xüsusilə İsrail, Yaponiya və Danimarkada daha geniş yayıldığı qeyd edilir.

Valideynlərin erkən uşaqlıq təhsili prosesinə cəlb olunması uşaqların hərtərəfli inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Bu kontekstdə ailə iştirakını gücləndirmək məqsədilə aşağıdakı təkliflər irəli sürülür:

**1. Ailə iştirakına dair təlim dəstəyi təmin etmək**

- **Təlimlərin təşviqi:** Valideynlər və qəyyumlarla işləyən heyət üçün təlimlər təşviq edilməlidir.
- **İlkin təhsil proqramları:** Ailə iştirakı mövzusunda kursların sistematik şəkildə ilkin təhsil proqramlarına daxil edilməsi vacibdir.
- **Peşəkar inkişaf imkanları:** Heyət üçün xüsusi vaxt və vasitələr təmin edilməklə peşəkar inkişaf imkanlarının yaradılması təşviq olunmalıdır.

**2. Müxtəlif ailə ilə iştirak şəraitlərinin yaradılması**

- **Vaxt və resurs təminatı:** İşçi heyətin ailə ilə davamlı, müntəzəm iştirak təcrübələrini həyata keçirmək üçün kifayət qədər vaxt, resurs və dəstəklə təmin olunmasına diqqət yetirilməlidir.
- **Gərginliyin azaldılması:** İş yükünü azaltmaq, ailələrlə əlaqəni asanlaşdırmaq üçün rəqəmsal vasitələrdən və ya digər üsullardan istifadə olunmalıdır. Bu yanaşma logistik və sosial-iqtisadi maneələrin aradan qaldırılmasına kömək edə bilər.

**3. Ailə ehtiyaclarına diqqətin artırılması**

- **Rəy mexanizmləri:** Cari iştirak təcrübələrinin əlçatanlığını və effektivliyini qiymətləndirmək üçün ailələrdən sistematik olaraq, rəy alma mexanizmləri yaradılmalıdır.
- **Valideyn perspektivlərinin nəzərə alınması:** Ailə ehtiyaclarını və rəylərini erkən uşaqlıq təhsili mərkəzlərinin qərar qəbuluna daxil etmək tövsiyə olunur. Bu toplantılar, rəqəmsal vasitələr və ya sorğular vasitəsilə həyata keçirilə bilər.

Hesabatda yer alan bu təkliflər ailə iştirakını gücləndirmək, peşəkar təlim imkanlarını artırmaq, əməliyyat şərtlərini təkmilləşdirmək və ailələrin spesifik ehtiyaclarını daha yaxşı qarşılamaq məqsədini daşıyır. Hərtərəfli yanaşma həm uşaqların inkişafına, həm də ailələrin erkən uşaqlıq təhsili mərkəzləri ilə əlaqələrinin möhkəmlənməsinə töhfə verəcəkdir.

Mənbə: OECD (2024), "Engaging parents and guardians in early childhood education and care centres", OECD Education Policy Perspectives, No. 110, OECD Publishing, Paris, https://doi.org/10.1787/d05dd1cf-en.

# Təhsil, bacarıqlar və məşğulluq: 2024-cü ilin trendləri və inkişafları

03

Avropa Təlim Fondu (ETF) tərəfindən cari ildə “Təhsil, bacarıqlar və məşğulluq: 2024-cü ilin trendləri və inkişafları” adlı hesabat təqdim olunmuşdur. Hesabat Avropa İttifaqına (Aİ) daxil olan tərəfdaş ölkələrdə insan kapitalının inkişafını dəstəkləməyi, əmək bazarının ehtiyaclarına uyğun gələn peşə və bacarıqların artırılmasını təşviq edir. Həmçinin hesabat tərəfdaş ölkələrdə təhsil sistemlərinin mövcud vəziyyətini, keyfiyyətini və müxtəlif qrupların öyrənmə imkanlarına çıxışının hərtərəfli təhlilini təqdim edir. Bu sahədəki trendləri və inkişafları qiymətləndirmək, təhsil sistemlərinin effektivliyini artırmaq üçün tövsiyələr vermək hesabatın əsas məqsədidir. Hesabatda qeyd olunur ki, təhsil sistemləri hər bir fərdin təhsil ehtiyaclarına cavab verə biləcək dərəcədə çevik və uyğun olmalıdır. Bununla yanaşı müxtəlif ölkələrdəki demoqrafik dəyişikliklər, sosial-iqtisadi problemlər və texnoloji yeniliklər bu sistemlərin fəaliyyətinə təsir edir.

Eyni zamanda davamlı öyrənmə sahəsində xüsusilə gənclər və böyüklər arasında əhəmiyyətli fərqlərin mövcudluğu hesabatda qeyd olunur. Belə ki, bir sıra tərəfdaş ölkələrdə işsiz və ya təhsildən yayınan gənclərin nisbəti yüksəkdir. Gürcüstan, Ermənistan və Qırğızıstanda işsiz və ya təhsildən yayınan gənclərin statistik göstəricisi 18 - 21% arası dəyişir. Bu da qeyd olunan ölkələrdə təhsil və məşğulluq sistemində gənclərin təhsildən iş həyatına keçidinin dəstəklənməsində çətinlik olduğunu göstərir. Moldova isə bu sahədə irəliləyiş əldə etmişdir. Belə ki, bu ölkədə işsiz və ya təhsildən yayınan gənclərin statistik göstəricisi 2022-ci ildə 17.2% olduğu halda, 2023-cü ildə 13.8%-ə enmişdir. Bu azalma təhsil və məşğulluq strategiyalarının müəyyən dərəcədə müsbət təsir göstərdiyini nümayiş etdirir. Qeyd olunan göstəricilər, təhsil sistemlərinin və əmək bazarının sosial-iqtisadi cəhətdən zəif qrupların ehtiyaclarına kifayət qədər cavab verə bilmədiyini nümayiş etdirir.

Eyni zamanda hesabatda yaşlı əhalinin artması əmək bazarında rəqabətlilik bu əhali qrupunun yeni bacarıq əldə etmə və ixtisaslarını artırma tələbatını artırdığı qeyd olunur. Belə ki, bəzi ölkələrdə əhalinin yaş strukturu təhsil ehtiyaclarını əhəmiyyətli dərəcədə artırır. Fələstin, Tacikistan, Qırğızıstan və Misirdə əhalinin 30%-dən çoxu 15 yaşdan kiçikdir. Bu həmin ölkələrdə məktəbəqədər və ümumi təhsil xidmətlərinin genişləndirilməsinə olan tələbatın yüksək olduğunu göstərir.
Əksinə Bosniya və Herseqovina, Serbiya və Ukraynada isə 15 yaşdan kiçik əhalinin nisbəti yalnız 13-14%-dir. Bu ölkələrdə əsas diqqət böyüklərin yenidən bacarıq əldə etməsinə və işçi qüvvəsinin davamlılığını təmin etməyə yönəlməlidir. Bu da bütün təhsil sistemləri üçün inklüziv yanaşma və məqsədyönlü müdaxilələrin vacibliyini vurğulayır. O cümlədən Azərbaycan, Kosova, Türkiyə və Mərakeşdə iş qabiliyyətli yaş qrupuna daxil olan əhalinin nisbəti yüksəkdir. Belə ki, bu ölkələrdə yetkin əhalinin təxminən 66%-dən 70%-ə qədəri iş qabiliyyətli yaş kateqoriyasına daxildir. Bu kontekstdə məşğulluq imkanlarına olan tələbat daha yüksəkdir. Eyni zamanda təhsil və peşə hazırlığı sistemləri əmək bazarının ehtiyaclarına uyğun bacarıqların təmin edilməsi, həmçinin yenidən bacarıq qazanma və ömürboyu təhsil imkanlarının yaradılması baxımından daha böyük təzyiqlə üzləşir. Bu da bacarıq uyğunsuzluğu, işsizlik və natamam məşğulluq risklərinin artmasına səbəb ola bilər.

Hesabatda miqrant tələbələrin təhsil sistemlərinə inteqrasiyasında ölkələr arasında əhəmiyyətli fərqliliklər göstərdiyi vurğulanır. Məsələn, İsraildə (15.1%) və Serbiyada (10.7%) miqrant tələbələrin nisbəti ən yüksək səviyyədədir. Bu, hər iki ölkənin ya yüksək miqrasiya axınları ilə qarşılaşdığını, ya da miqrantlar üçün geniş imkanlar təqdim etdiyini ifadə edir. Ümumilikdə Avropa Təlim Fonduna daxil olan tərəfdaş ölkələrində ilk nəsil miqrant tələbələrin orta göstəricisi 3.1%-dir ki, bu da OECD ortalamasından (4.6%) aşağıdır. Bununla belə Özbəkistan, Ukrayna və Kosova kimi ölkələrdə bu göstərici 0.4%-dən aşağıdır ki, bu da həmin ölkələrin əsasən miqrasiya mənbəyi rolunu oynaması ilə əlaqələndirilir. Bununla yanaşı, böyüklər arasında aşağı təhsil səviyyəsinin ciddi sosial-iqtisadi çağırışlar yaratdığı hesabatda qeyd olunur. Məsələn, Tunisdə qadınların aşağı təhsil səviyyəsinə malik olma nisbəti 2015-ci ildə 66.4%-dən 2023-cü ildə 52.9%-ə, kişilər üçün isə 62.8%-dən 50%-ə enmişdir. Buna baxmayaraq təhsil səviyyəsi arasında əhəmiyyətli dərəcədə gender fərqi müşahidə edilir.



Misirdə qadınların 51.5%-i, kişilərin isə 44.3%-i aşağı təhsil səviyyəsinə malikdir ki, bu da gender bərabərsizliyinin davam etdiyini göstərir. Mərakeşdə isə vəziyyət daha kritikdir. Belə ki, əhalinin 84.5%-i, əsasən kişilərdən ibarət olmaqla, aşağı təhsil səviyyəsinə malikdir. Bu rəqəmlər həm regional problemləri, həm də gender əsaslı təhsil fərqlərini aşkar şəkildə ortaya qoyur. Azərbaycanda isə aşağı təhsil səviyyəsinə malik qadınların payı 2015-ci ildəki 17.4%-dən 2023-cü ildə 12.4%-ə düşmüşdür. Lakin aşağı təhsil səviyyəsinə malik kişilərin payı sabit qalaraq, 12.5% olmuşdur. Ümumilikdə, hesabatdan aydın olur ki, Azərbaycanda Qazaxıstanda və Özbəkistanda əhəmiyyətli gender fərqləri müşahidə olunmur, bu da digər ETF tərəfdaş ölkələri ilə müqayisədə təhsilə çıxış və iştirakda daha böyük gender bərabərliyinin mövcudluğunu göstərir.

Hesabatda təhsil sistemlərinin təşkilati və idarəetmə məsələləri ətraflı təhlil edilmişdir. Belə ki, ETF-yə daxil olan tərəfdaş ölkələr arasında təhsilə ayrılan ÜDM-in payı geniş fərqliliklər göstərir. 2023-cü il məlumatlarına əsasən, təhsilə yüksək maliyyə ayıran ölkələr arasında Qırğızıstan (6.8%), Tunis (6.7%), İsrail (6.5%), Mərakeş (6.0%) və Moldova (6.3%) yer alır. Buna baxmayaraq bəzi ölkələr təhsilə daha aşağı pay ayırır. Məsələn, Azərbaycan (3.6%), Ermənistan (2.5%), Türkiyə (2.6%) və Albaniya (2.7%). Mərkəzi Asiyada Özbəkistan (5.5%) və Tacikistan (5.8%) orta səviyyədə maliyyə ayırdığı halda, Türkmənistan (2.8%) ən aşağı göstəriciyə malikdir. Qərbi Balkanlarda Bosniya və Herseqovina 4.1% ilə orta səviyyəni qoruyur. Lakin Serbiya (3.2%) və Türkiyə (2.6%) AB ortalamasının (4.7%) xeyli altındadır. Bununla belə yalnız maliyyə resurslarının həcmi deyil, onların effektiv istifadəsi də vacibdir. Azərbaycan (90) və Türkiyə (86) kimi ölkələr daha məhdud maliyyə resurslarına baxmayaraq, güclü maddi baza təmin edir. Eyni zamanda yüksək maliyyə ayıran bəzi ölkələrdə (məsələn, Kosovo və Livan) təhsil üçün material bazası göstəriciləri zəifdir. Bu göstərir ki, strateji və effektiv istifadə təhsilin keyfiyyətinin artırılmasında daha vacibdir.

Təhsil sistemlərinin səmərəli idarə olunması, insan resurslarının optimal şəkildə bölüşdürülməsi və müəllimlərin peşəkar hazırlığı kimi amillər təhsil keyfiyyətinin artırılmasında həlledici əhəmiyyət kəsb edir. Təhsil imkanlarına çıxış baxımından Türkiyə diqqətçəkən bir nümunədir, çünki burada böyüklərin ömürboyu öyrənmə proqramlarına qoşulma ehtimalı gənclərdən daha yüksəkdir. Bunun əksinə olaraq Albaniya, Gürcüstan, Mərakeş və Fələstində gənclər və böyüklər arasında təhsil iştirakında nəzərəçarpan fərqlər mövcuddur.

Hesabatda 2023-2024-cü illər arasında əldə olunan məlumatlar bəzi ölkələrdə təhsilə çıxış göstəricilərinin zəiflədiyi vurğulanır. Azərbaycanda bu dövrdə Sistem Performans İndeksi (SPI) 15 bənd azalmışdır ki, bu da gənclər üçün təhsil imkanlarının təmin edilməsində problemlərin mövcud olduğunu göstərir. Qırğızıstanda SPI göstəricisi gənclər üçün 25 bənd olduğu halda, böyüklər üçün isə bu göstərici əhəmiyyətli dərəcədə azalmışdır. Bundan əlavə Monteneqroda həm gənclər, həm də böyüklər üçün təhsil sisteminin göstəricilərində geriləmə qeydə alınmışdır. Bu rəqəmlər təhsil imkanlarının əlçatanlığı və iştirak sahəsində problemlərin mövcudluğunu təsdiqləyir.

Həmçinin ETF tərəfdaş ölkələrinin əmək bazarlarında "elementar" işlərdə (ISCO-08, Qrup 9) çalışan işçilərin nisbəti Avropa İttifaqı ölkələrinin (AB27) orta göstəricisindən yüksək olduğu hesabatdan aydın olur. AB-də bu kateqoriya ümumi məşğulluğun orta hesabla 8.4%-ni təşkil etdiyi halda, Mərakeş (34.3%), Qazaxıstan (16.0%), Fələstin (20.2%), Tunis (16.8%) və Azərbaycan (15.3%) kimi ölkələrdə bu göstərici xeyli yüksəkdir. Digər tərəfdən, "yüksək ixtisaslı" işlərdə (ISCO-08, Qruplar 1-3) çalışanların nisbəti, adətən, AB27 ortalamasından (43.3%) daha aşağıdır. Məsələn, Mərakeşdə bu kateqoriya üzrə məşğulluq 8.2%, Qırğızıstanda 21%, Albaniyada 21.4% və Misirdə 22.2%-dir. Bununla belə, Monteneqro (38.1%), İordaniya (36.5%), Qazaxıstan (39.8%) və Ukrayna (37.9%) kimi ölkələrdə yüksək ixtisaslı işçilərin payı AB27 ortalamasına daha yaxındır.

Beynəlxalq Təhsil İcmalı
Noyabr 2024



Bu göstəricilər əmək bazarlarında təhsil səviyyəsi ilə bağlı olan struktur fərqləri və iqtisadiyyatın tələblərini əks etdirir. Elementar işlərin yüksək payı, əsasən aşağı təhsil səviyyəsi və az ixtisas tələb edən sektorlarda iş imkanlarının genişliyini göstərir. Yüksək ixtisaslı işlərin nisbətən aşağı payı isə təhsil və təlimlə bağlı çətinliklərə işarə edir.

Hesabatın əsas məqamlarından biri də texnologiyanın təhsildə rolu və davamlı inkişafın təşviqinə verdiyi töhfələrdir. Rəqəmsal texnologiyalar və süni intellekt iqlim dəyişiklikləri ilə bağlı məlumatlılığı artırmaq, davamlı enerjinin inkişafını təşviq etmək və qlobal vətəndaşlıq anlayışını gücləndirmək üçün istifadə olunur. Lakin texnologiyaların bu imkanlardan tam şəkildə yararlanması üçün təhsil sistemləri rəqəmsal savadlılıq və etik məsuliyyət anlayışlarını təhsil proqramlarına inteqrasiya etməlidir.

Ümumiyyətlə, hesabatda göstərilir ki, təhsil sistemlərinin davamlı inkişafı, inklüzivliyi və effektivliyi artırılmalıdır. Təhsil yalnız bacarıqların artırılması və məşğulluğun təmin edilməsi vasitəsi deyil, həm də sosial-iqtisadi bərabərsizliyin azaldılması, davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi üçün mühüm vasitədir. Yekun olaraq qeyd etmək lazımdır ki, hesabat gələcək islahatlar üçün dəyərli məlumat və istiqamətlər təqdim edir.

Mənbə: European Training Foundation. (2024). Education, skills, and employment: Trends and developments 2024. European Training Foundation.

# Təhsilə Maliyyə Baxışı 2024

Dünya Bankı, UNESCO və Qlobal Təhsil Monitorinqinin birgə əməkdaşlığı ilə "Təhsilə Maliyyə Baxışı 2024" hesabatı təqdim olunmuşdur. Hesabatda təhsilin maliyyələşdirilməsində resursların artırılmasının, səmərəli istifadə edilməsinin və sosial ədalət prinsiplərinə riayət olunmasının mühüm əhəmiyyət kəsb etdiyi xüsusi vurğulanır. Çünki, təhsil yalnız bilik və bacarıqların artırılması vasitəsi deyil, həm də sosial-iqtisadi bərabərsizliyin azaldılması, cəmiyyətin inkişaf etdirilməsi üçün güclü bir alətdir.

**Qlobal təhsil xərclərinin dinamikası**

2010-2022-ci illərdə qlobal təhsil xərcləri orta hesabla illik 1.8% artmışdır. Lakin bu artım qlobal iqtisadi artımdan geri qalmış və gəlir qrupları arasında fərqlilikləri artırmışdır. Aşağı və orta gəlirli ölkələrdə təhsil xərcləri demək olar ki, ikiqat artmış, yüksək gəlirli ölkələrdə isə yalnız 10%-lik artım qeydə alınmışdır. 2022-ci ildə qlobal təhsil xərcləri ümumilikdə 5.8 trilyon ABŞ dollarına çatmışdır ki, bu da əsasən ailələrin maliyyə töhfələrinin artması ilə əlaqəlidir.

Hökumətlərin təhsil xərclərinə ümumi töhfəsi 2022-ci ildə 4.33 trilyon ABŞ dolları təşkil etmişdir. Bu, əvvəlki il ilə müqayisədə azalma olsa da, qlobal təhsil maliyyələşdirilməsində hələ də əsas 74.6%-lik paya sahibdir. Ailələr isə təhsil xərclərinin 25.1%-ni, donorlar isə cəmi 0.29%-ni təmin etmişdir.

**Regionlararası fərqlər və ailə xərcləri**

Ailə xərclərinin payı az gəlirli ölkələrdə daha yüksəkdir. Aşağı gəlirli ölkələrdə təhsilə ayrılan maliyyənin 25.8%-ni ailələr təmin etdiyi halda, bu göstərici yüksək gəlirli ölkələrdə yalnız 19.6%-dir. Orta gəlirli ölkələrdə ailələr adətən ÜDM-in 3.6%-ni təhsilə sərf edir. Halbuki yüksək gəlirli ölkələrdə bu rəqəm 1.3%-ə bərabərdir.

Həmçinin hesabatda regionlar üzrə fərqlər də öz əksini tapır. Məsələn, Hindistanda ailələr ÜDM-in 3.5%-ni təhsilə sərf edir, Senegal kimi aşağı gəlirli ölkələrdə isə bu rəqəm yalnız 0.9%-dir. Hesabatda qeyd olunur ki, təhsil xərclərinin ailələr tərəfindən ödənilməsi, dövlət investisiyasının aşağı olduğu ölkələrdə daha geniş yayılmışdır.

**Hökumət xərclərinin trendləri**

2010-2022-ci illər ərzində aşağı gəlirli ölkələrdə hökumətlərin təhsil xərcləri ÜDM-in 2.9%-dən 3.9%-ə yüksəlmişdir. Bunun əksinə olaraq, digər gəlir qruplarında hökumət xərcləri azalmışdır. 2022-ci ildə yüksək gəlirli ölkələrdə bir məktəbdə yaşlı fərd üçün təhsil xərci 8,532 ABŞ dolları olduğu halda, aşağı gəlirli ölkələrdə isə bu rəqəm cəmi 55 ABŞ dolları təşkil etmişdir.

**Beynəlxalq yardımın rolu və azalan prioritetlər**

2022-ci ildə beynəlxalq təhsil yardımı 16.6 milyard ABŞ dolları ilə rekord həddə çatmışdır. Lakin ümumi inkişaf yardımlarında təhsilin payı azalmışdır. Belə ki, 2019-cu ildə 9.3% təşkil edən bu göstərici 2022-ci ildə 7.6%-ə enmişdir. Prioritetlərin səhiyyə və enerji kimi sahələrə yönəlməsi ilə aşağı gəlirli ölkələrdə təhsilə ayrılan beynəlxalq yardım zəifləmişdir.

Eyni zamanda məktəbəqədər və ibtidai təhsil ən çox yardım alan sahələr olaraq qalmışdır. Lakin onların payı 2010-cu ildəki 52%-dən 2022-ci ildə 46%-ə düşmüşdür. Bunun əksinə olaraq, orta təhsilə ayrılan yardım 20%-dən 26%-ə yüksəlmişdir.

**Dövlət borcları və təhsil üzərindəki təsirləri**

Dövlət borclarının artması təhsilə ayrılan resurslara mənfi təsir göstərir. Afrika ölkələrində dövlət borc xərcləri bir nəfərə düşən təhsil xərclərinə yaxın olmuşdur. Cənubi Asiyada isə (103 ABŞ dollar) borc xərcləri (81 ABŞ dollar) təhsil xərclərini üstələyib.



**Təhsil maliyyəsinin effektiv istifadəsi**

Təhsil sahəsində vəsaitlərin səmərəli istifadəsi qlobal problem olaraq qalır. Məsələn, Malavi və Uqanda kimi ölkələrdə regionlararası qeyri-bərabərlik təhsilin keyfiyyətinə mənfi təsir göstərmişdir. Bunu üşün hökumətlər və donorlar mövcud resursların daha səmərəli istifadəsini təmin etməli, onları prioritet sahələrə yönəltməlidir.

**Tövsiyələr:**

**1. Səmərəli resurs idarəetməsi:** Təhsil resurslarının planlı və optimal istifadəsi vacibdir. Təhsil imkanlarının genişləndirilməsi məqsədilə xərclər daha yaxşı idarə olunmalıdır.

**2. Beynəlxalq yardımın prioritetləşdirilməsi:** Donorlar ibtidai və orta təhsili prioritet sahələr kimi müəyyən etməlidir. Həmçinin, yardım proqramlarının effektivliyini artırmalıdır.

**3. Uzunmüddətli maliyyə strategiyaları:** Dövlət borclarının idarə edilməsi və daxili maliyyə mənbələrinin səfərbərliyi uzunmüddətli təhsil strategiyalarının əsasını təşkil etməlidir.

**Nəticə:**

“Təhsilə Maliyyə Baxışı 2024” hesabatı, təhsilə ayrılan qlobal maliyyə resurslarının qeyri-bərabərliyini və qeyri-səmərəliliyini vurğulayır. Qlobal təhsil sistemlərinin inkişafı üçün hökumətlər, donorlar və ailələr arasında daha sıx əməkdaşlıq tələb olunur. Resursların səmərəli istifadəsi və uzunmüddətli strategiyaların hazırlanması davamlı inkişaf məqsədlərinə çatmaq üçün mühüm addımlardır.

Mənbə: Tanaka,Nobuyuki; Angel-Urdinola,Diego; May Bend; Hu,Yitong; Angelica Rivera-Olvera; Manos Antoninis; Murakami,Yuki; Montoya,Silvia. Education Finance Watch 2024 (English). Washington, D.C.: World Bank Group. http://documents.worldbank.org/curated/en/099102824144527868/P50097819250a00ce1812018168df2deaa3